Parlaq bir gələcək üçün, çiçəklənən millət üçün,
düşünərək yaşayanlar üçün, səsi dünyaya yayılacaq
bir gənclik üçün, işıqlı sabahlar üçün, xoşbəxt bir ailə
üçün, sevincli qəlblər üçün, gülən üzlər üçün,
həyat səhifələrimizi parlaq imza sahiblərinin
qələmi ilə yazmaq üçün

mono

Kitabın sahibi: ______________________________

Oxu tarixi: ______________________________

Ürək ver: ♡ ♡ ♡ ♡ ♡

Azər Qərib

# ORALAR PARTİ

mono
NON-FİKŞN

| | |
|---|---|
| Koordinator: | Nurman TARİQ |
| Redaktor: | Toğrul MUSAYEV |
| Korrektor: | Flora ƏLİYEVA |
| Tərtibatçı: | Zülfi XƏLİLOV |
| İllüstrator: | Toğrul MƏSTƏLİYEV |
| Cildin dizaynerləri: | Toğrul MƏSTƏLİYEV<br>Rəsul HƏSƏN |

**Azər Qərib**
**ORALAR PARTİ**

Bakı, "MONO" nəşriyyatı – 2023, 152 səh.

**© Azər Qərib / 2023**
**© Parlaq İmzalar MMC / 2023**

Kitabın bütün hüquqları qorunur. İcazəsiz olaraq hər hansı vasitə ilə nəşri və yayımlanması qadağandır.

MONO – Parlaq İmzalar MMC-yə məxsus markadır.

ISBN: 978-9952-5477-4-0

MONO nəşriyyatı – 10

www.parlaqimzalar.az
mono@parlaqimzalar.az
/ monokitab
0559697259 / 0559897259

Mətbəə: "AVE PRİNT" MMC
Çap tarixi: 10.04.2023
Sifariş: 04(21)/23

Uşaq vaxtı o qədər kitab oxuyurdum ki, valideynlərim gözlərimin zəifləyəcəyindən narahat olub vaxt məhdudiyyəti qoyurdular hətta, mən də yorğan altında gizlənib xəlvəti oxuyurdum.

Balaca fənərim var idi, hərdən satqınlıq edib işığı ifşa edirdi məni. “Kitab” sözü, “yazıçı” sözü həmişə müqəddəs anlayışlar olub mənim üçün. Ona görə indi əlinizdə tutduğunuz qısa hekayələr toplusunu kitab adlandıra bilmirəm, illah da ki, özümü yazıçı.

Bu sadəcə başıma gələn və qələmə aldığım yumoristik hadisələrdir, oxuyun, üzünüz gülsün. Kiminsə xoşuna gələcək, kiminsə gəlməyəcək, bu, normaldır, amma hətta bir neçə oxucunun dodaqlarına təbəssüm qonarsa, mən özümü xoşbəxt hiss edərəm.

Bu günlərdə mənim “Oralar” telelayihəmin 20 yaşı tamam olur və bu 20 il ərzində mənə güc verən, ümid verən, inam verən siz olmusunuz, mənim əziz, mənim sadiq, mənim doğma tamaşaçılarım, izləyicilərim və mənim oxucularım. Var olasınız!

| № | Əhvalatın adı | Şəhər | Səh. |
|---|---|---|---|
| 01. | Feyxoa | Paris | 9 |
| 02. | Siciliyalı “mafioz” | Palermo | 15 |
| 03. | Külqabı | Amsterdam | 23 |
| 04. | Təşviş | Tokio | 29 |
| 05. | Üfunət | Dehli | 35 |
| 06. | Biznes-klass | Brazilia | 43 |
| 07. | Rəsm | London | 49 |
| 08. | Gürcülərin yası | Leninqrad | 55 |
| 09. | Şəkil | Rovin | 61 |
| 10. | Falçı Nisə | Bakı | 67 |
| 11. | Bilet | Bakı | 73 |
| 12. | Aşpaz Ramazan | London | 79 |
| 13. | Tanyanın paltarı | Leninqrad | 87 |
| 14. | Hazırcavab Vasya | Bakı | 93 |
| 15. | Yola getməyən gəlinlər | Bakı | 99 |
| 16. | Mulat və cılız | San-Xuan | 105 |
| 17. | ZO-LAQ! | Barselona | 113 |
| 18. | “Frankfurtski” sosis | Vyana | 121 |
| 19. | Çin sərgüzəştləri | Pekin | 127 |
| 20. | Quzuşka | Bakı | 133 |
| 21. | Argentinanın lyuku | Buenos-Ayres | 139 |
| 22. | Göz dəydi | Ştutqart | 145 |

№ **01** Şəhər: **Paris**

Əhvalatın adı:

## Feyxoa



Deməli, kişinin sözü söz olan vaxtlarıdır, uçuram Parisə, oturmuşam ekonom-klasda, xəcalət hissi bürüyüb məni, üzümü yapışdırmışam pəncərəyə ki, görən olmasın, Qəbələyə xəbər çatsa, “mız” qoyacaqlar ki, bəs Azər Qəribin kitabı bağlandı, artıq salam verməmək olar, kiminin əvvəli, kiminin axırı, biznes-klasla uçanda heç bizi tanımırdı, əcəb olur ona-filan.

Yerim də elədir ki, arxam ayaqyolunun divarıdır, hər girib-çıxan olanda baçokun şıltaq sədaları feyzyab edir məni, qapının ağzı anşlaq, izdiham yaşanır, qış vaxtıdır, uçuşda su havayı, hamının ürəyi dolu.

Bu bir qırağa... Yanımda bir kişi əyləşib, oturandan mənimlə söhbət etməyə can atır, sifətimi turşuduram, kar eləmir, hökmən deyir ki, mənimlə laqqırtı vur. O olur e, təyyarədə yanında çoxdanışan, bax ondan.

Deyə də bilmirəm ki, ay kişi, sən cazibəli xanım qonşu deyilsən e, keçəl, qarınlı kaftarsan, məndən beşbetər, sənin nəyinə vaxt ayırım, imkan ver arxamdakı şəlalənin səsinə valeh olum.

Açığı, evdən çıxanda da bir az dığ-dığ oldu ki, özün gedirsən, məni Parisə aparmırsan, yəni belə bir əsəbi şəraitdə keçir uçuşum, heç su atan da olmadı dalımca, bu da buradan beynimi deşir, təsəvvür edin halımı.

Söhbət də çoxdanın söhbətidir, o zamanlar bu qədər gediş-gəliş yox idi. Parisdə yaşayan dostumun anası dedi ki, bəs oğlum yaman feyxoa yeyəndir, uşağa iki kilo feyxoa apar, qəribçilikdir, verdim özümü bazara, seçdim bir-bir feyxoaları, hamısı totuş-motuş, milli ruhda.

Nə isə, endik Parisə, çamadanda feyxoa, sevincək gedirəm çıxışa və birdən gömrük barmağı ilə mənə göstərdi ki, sən gəl bura. “Mən?” Dedi: “Hə, sən, aç çamadanı!” Ah, anam məni niyə sarışın doğmadı, Şengen sərhədlərini əziyyətsiz keçərdim.

Xülasə, açdım çamadanı, bu coşdu... “Vot iz it?” Özü də elə ehtiraslandı, elə bil arvad axşama qədər gedib anasıgilə və birdən günorta Monika Belluççi qapını döyür.

Dedim: “İt iz feyxoa, onli in Azerbaycan!” Hiss edirəm ki, fərəh boğur məni.

Amma bu heç vecinə almadı fəxarətimi, soruşdu ki, “Vot???”




DOUANE

Dedim: “Canına azzar vot, feyxoa, anderstənd?” Nə isə, belə bir az hürüşdük, bu dedi ki, gərək rəisi çağırım.

Rəis gəldi, zənən xeylağı! İnanın, ifritə bunu görsə, infarkt olar, xasiyyəti də görünüşünə müvafiq. Qəlbində bəşəriyyətin bütün kişilərinə olan nifrətini toplayıb mənə dedi ki: “Bu, meyvədir, olmaz, bəs biz bunu müsadirə edirik”.

Mənim səhər tezdən bir-bir seçdiyim feyxoaları?! Müsadirə??? Dedim: “Ay sən öləsən, malım batınca canım batsın, yeyəcəm bunları”. Qoydum setkanı qabağıma, başladım bu feyxoaları yeməyə, köp şokda.

Orada bir-iki nəfər mənim kimi qaçaqmalçı dolaşırdı, onları da qonaq elədim, amma sözüm onda yox. Nəyi soruşacaqdım, o, düz söhbətdir ki, aslanın dişisi, erkəyi olmaz?